

*Fuad Babanlı*

# VƏTƏN ÇİYİNLƏRDƏ DAŞINMALIDIR

Dağlar o tərəfdən boylanır bizə,
Haydı, Azərbaycan, haydı, irəli!
Qanımız bu yolda qoy çıxsın dizə,
Qaytaraq Qarabağ adlı gözəli.

Qalx!!! ”Məmə” deyəndən, ”pəpə” yeyənə!
Bu səsin sədası dönsün sipərə.
Dağlar haraylayır, dövran tez dönə,
Gedirik gözlənən üzü səhərə.

Dünya nəzərini dikib bizlərə,
Haqqa çiyindaşlıq edən çoxalır.
Belə lazım idi durmaq bir kərə,
Torpağın hovunu isti qan alır.

Dünya bizə baxır, haydı, igidlər!
Səsiniz dağlarda səslənir artıq.
Silkələnsin göylər, titrədilsin Yer,
Sökülsün barmaqlıq qoruyan darlıq.

Sonuncu sözümüz: - ”Həvəsdi, bəsdi!”
Qıyaq varımıza, sökülək, nolar?!
Vətəni qızdıran yeni nəfəsdi,
Bu Yaz nəfəsində Tanrı hökmü var!

Vaxt gəlib, bu günlər, yeri var gücün,
Deməli, həsrətin üsyanı budur!
Torpağı taptağa dönməmək üçün,
Vətən, çiyinlərdə daşınmalıdır!!!